# TARİX FƏNNİNİN TƏDRİSİNDƏ İNNOVATİV ÜSULLARDAN İSTİFADƏNİN TƏŞKİLİ, TƏLİMİN MƏZMUN XƏTLƏRİ VƏ NƏTİCƏLƏRİ

10

**Talıb Paşayev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ARTPİ-nin aparıcı elmi işçisi*
E-mail: talib_48@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* M.İ. İlyasov,
*ped.ü.fəls.dok., dos.* M.S.Kazımov

***Açar sözlər:*** *təhsil, metodika, kurikulum, bilik, cəmiyyət*
***Ключевые слова:*** *образование, методика, курикулум, знание, общество*
***Key words:*** *education, methods, curriculum, knowledge, society*

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra demokratik yolla vətəndaşa, ümumilikdə cəmiyyətə xidmət yüksəlmiş, bu da müstəqil dövlətin iqtisadi-siyasi, mədəni yüksəlişinə və gənc nəslin inkişafına gətirib çıxarmışdır.

Respublikamızda təhsil prioritet sahə hesab olunur.

"Azərbaycan Respublikasının təhsil sahəsində İslahat proqramı haqqında" (15 iyun 1999-cu il) qəbul edilmiş fərman təhsilin inkişafına istiqamət vermis, respublika Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilin inkişafına təkan vermişdir.

İslahatın tələbləri baxımından təhsilləndirici, tərbiyələndirici və inkişaf etdirici sahələr diqqət mərkəzində olmaqla yeni təlim metodları - innovativ üsullar yaranmışdır. Yeri gəlmişkən, göstərək ki, "innovasiya" sözü olub mənası "in"-daxili, "nova-siya"yenilik deməkdir. Mahiyyət etibarı ilə innovasiya dedikdə, təhsil sistemində baş vermis pedaqoji yeniliklər başa düşülür. Bu da öz növbəsində dünya təhsil sisteminə, qloballaşma prosesinə yaxınlaşmağa imkan verir.

Azərbaycan Respublikasında təhsil Standartları (Kurrikulum) hazırlanaraq, tətbiq olunur. Təhsilin məzmununda təkmilləşmə və yeniləşmə aparılır.

Tarix müəllimləri yenilikləri nəzərə alaraq, dərsləri müasir tələblərə əsasən qurmalıdır.

Azərbaycan tarixi və ümumi tarix fənlərin tədrisində fənnin məzmun xətləri və onların əsaslandırılması zəruridir. Məzmun xətləri müəyyən edilmiş və hər bir sinfin proqram səviyyəsinə görə aşağıdakı kimi qruplaşdırılmışdır: 1. Tarixi zaman; 2. Tarixi məkan; 3. Dövlət; 4. Şəxsiyyət; 5. Mədəniyyət. (1, 25). Məzmun xətlərinin mahiyyəti ilə bağlı gənc müəllimlərə aşağıdakı məsələlərdən xəbərdar olmalıdırlar.

Məzmun xətlərinin təhlilindən görünür ki, hadisələr tarixi zaman daxilində olmaqla hadisə təzahürlərinin hamısı tarixi şəraitdə baş vermiş; insanın və cəmiyyətin həyatı tarixi məkan daxilində olmaqla insan həyatının bütün sahələrinə böyük təsir göstərmiş, gələcək inkişafa kömək olmuş, təbii-coğrafi amillər rol oynamış; Müxtəlif dövrlərdə dövlət quruluşu formaları meydana çıxmış və müasir səviyyəyə çatmışdır; Ayrı-ayrı dövrlərdə tarixi şəxsiyyətlər meydana gəlməklə dövlətin fəaliyyətini tənzimləmiş, inkişaf etdirmişdir; Mədəniyyət insanların maddi və mənəvi fəaliyyətinin bütün sahələrini əhatə etmişdir. Mədəniyyətin öyrədilməsi şagirdlərin dünyagörüşünün inkişafına təsirsiz ötüşməmişdir.

Zaman-məkan, onların əhəmiyyəti haqqında bilgilərə sahib olmaqla şəxsiyyətin inkişafında mədəniyyətin oynadığı rolu dərk etməlidirlər.

Məzmun xətlər üzrə öyrədilən məsələlərdən nəticə çıxararaq şagirdlər bilməlidirlər.

**Ümumi orta təhsil üzrə:**

Tarixi hadisələri xronoloji əsasda təsvir etmək və qiymətləndirmək:

- tarixi hadisələr arasındakı səbəb – nəticə əlaqələrini izah etmək.
- dünya mədəniyyəti və incəsənətinin inkişafında Azərbaycanın roluna dair mülahizələrini bildirmək.

2. Tarixi məkana görə sivilizasiyaların formalaşmasında, dünya mədəniyyəti və incəsənətinin inkişafında Azərbaycanın mövqeyini şərh etmək, nəticələri söyləmək.

3. Azərbaycanda dövlətçilik ənənələrinin yaranması və inkişafı xüsusiyyətlərini qiymətləndirmək:

Azərbaycanda yaranmış dövlətlərlə bağlı müxtəlif tarixi mənbələrdən topladığı materialları təqdim etmək.

4. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirmək:

Mənbələri araşdırmaqla Azərbaycanın görkəmli şəxsiyyətlərinə dair materiallar toplayaraq təqdim etməli.

5. Azərbaycan sivilizasiyası və mədəniyyətinin səciyyəvi əlamətlərini dünya sivilizasiyası və mədəniyyətinin səciyyəvi əlamətləri ilə müqayisə etmək:

Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar apararaq nəticələri təqdim etmək və s.

**Tam orta təhsil üzrə:**

Tam orta təhsildə də məzmun xətləri üzrə öyrədilən məsələlər şagirdlər tərəfindən nəticə çıxarılmalı, müəyyən dərəcədə dərinləşdirilmiş şəkildə həyata keçirilməlidir.

Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrlərini təhlil etməklə onların oxşar və fərqli cəhətlərini söyləməli.

Tarixi hadisə, proses və təzahürlərin mahiyyətini konkret dövrün xüsusiyyətləri baxımından qiymətləndirməyi bacarmalı.

Tarixi hadisə, proses və təzahürlərlə bağlı fərziyyə və mülahizələr irəli sürməli, proqnozlar verməli, təqdimatlar etməli.

Müxtəlif tarixi hadisə, proses və təzahürlərlə bağlı informasiyalar toplayıb, qiymətləndirməli.

Aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini müqayisə etməli, Azərbaycan üçün səciyyəvi cəhətləri izah etməli.

3. Dövlətlərin yaranması və inkişafında konkret dövrün xüsusiyyətlərini qiymətləndirməli.

-Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrlərini təhlil etməli, onların oxşar və fərqli cəhətlərini izah eyməli, mülahizələrini təqdim etməli.

- Dövlət quruluşlarına və dövlət idarəetməyə dair təhlillər aparmalı.

Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin rolu və fəaliyyətini qiymətləndirməli , müqayisələr apararaq öz fikirlərini bildirməli.

-Görkəmli tarixi şəxsiyyətlər haqqında mənbələr əsasında materiallar toplamalı.

5. Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin inkişafında rolunu dəyərləndirməli.

- Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparmalı, nəticələrini təqdim etməli.(1.527)

Tarix fənninin tədrisi üsullarından istifadə çox sahəlidir və yeri gəldikdə, özünü doğrultmuş ənənəvi təhsil üsullarından da istifadə etmək məsləhətdir. Hər bir dərsin icmalı, geniş planı, plan gündəliklərin tutulması öz aktuallığını saxlayır.

Müasir dərs şagirdlərin zəruri biliklər əldə etməsinə və vərdişlərin qazanılmasına imkanlar açır (5, 52).

Optimallaşdırılmasında bir sıra üsullar xüsusi əhəmiyyət daşıyır:

-Beyin həmləsi, anlayışların çıxarılması, müzakirə, rollar üzrə oyun, layihələrin hazırlanması, təqdimatlar, debat müzakirə xətləri, esse, fasiləli oxu üsulu, kollektivlə iş: qruplarda iş, cütlərlə iş,





fərdi iş, və s. göstərmək mümkündür. Fənnin tədrisi prosesində şagird nailiyyətlərinin qiymətləndirilməsi də diqqət mərkəzində dayanmalıdır. Qiymətləndirmənin də bir çox meyarları vardır:

Şifahi və yazılı təqdimat; özünüqiymətləndirmə; test tapşırıqları; xronoloji cədvəl tərtib etmə; kontur xəritə ilə iş; izahetmə; əlaqələndirmə; dəyərləndirmə, şərhetmə və s. göstərmək olar.

Fənnin tədrisi prosesində 6 mərhələ olmaqla dərsin tərbiyəedici cəhətləri diqqətdə saxlanılmalıdır. (5, 34)

Nəticə olaraq göstərək ki, tarix fənlərinin tədrisi müasir tələblər baxımından həyata keçirilməli, şəxsiyyətin formalaşmasına xidmət etməlidir.

**Problemin aktuallığı.** Tarix fənninin tədrisində innovativ elmi yenilikdən istifadənin yollarını göstərilir.

**Problemin yeniliyi.** Məqalədə müasir dərsin tədrisində elmi metodlar irəli sürülür.

**Problemin praktik əhəmiyyəti.** Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, burada innovativ metodlar önə çəkilmiş, təhsil sistemində kurikulumun rolu bir daha işıqlandırılmışdır.

## ƏDƏBİYYAT


1. A. Əhmədov, Ə. Abbasov, İ.Cavadov. Ümumi təhsilin fənn standartları (I-XI siniflər üzrə) Bakı, 2012.
2. Paşayev Ə., F. Rüstəmov. Pedaqogika: Dərs vəsaiti. Bakı, 2002.
3. İ. Cəbrayılov. Azərbaycan tarixinin tədrisi metodikası. Bakı, 2006.
4. T. Nəcəfli. Tarixin tədrisində müasir üsullar. Bakı, 2000.
5. T. Paşayev. Tarixin tədrisi metodikasının müasir problemləri (metodik vəsait). Bakı, 2015.
6. Kurikulum islahatı: tədqiqatlar, nəticələr (ARTPİ-nin nəşri) B. 2011;
7. A. Abbasov. Pedaqogika. Bakı, 2010.
8. Ə. Ağayev. Təlim prosesi: Ənənə və müasirlik. Bakı, 2006.
9. Ə. Əlizadə. Yeni pedaqoji təfəkkür. Bakı, 2001.
10. Z. Qaralov. Qloballaşma və insan inkişafı problemləri // Azərbaycan məktəbi, 2004, № 2


**Т.С. Пашаев**

## ИСПОЛЬЗОВАНИЕ ИННОВАЦИОННЫХ МЕТОДОВ ПРИ ОБУЧЕНИИ ИСТОРИИ. СОДЕРЖАТЕЛЬНЫЕ ЛИНИИ И РЕЗУЛЬТАТЫ ОБУЧЕНИЯ.

### РЕЗЮМЕ

В статье указаны пути развития образования в Азербайджанской Республике в процессе глобализации с использованием методов изучения предмета истории, современных способов преподавания. Раскрыта тема образования в рамках существующих стандартов преподавания (куррикулума), в частности, показаны общие результаты изучения предмета, тематические линии (пять тематических линий – историческое время, историческое место, государство, личность и культура), оценка достижений учащегося, построение урока и организация использования инновационных научных методов в преподавании предмета истории.

**T.S. Pashayev**

## USE OF INNOVATIVE METHOODS IN TEACHING OF HISTORY, CONTENT LINES AND RESULTS OF TRAINING

### SUMMARY

The article indicates the paths of development of education in the Republic of Azerbaijan in the course of globalization using the methods of studying history, modern methods of teaching. The theme of Education in the framework of the existing standards of teaching (curriculum) has been explored, in particular, the overall results of studying the subject, thematic lines (five thematic lines - Historical time, Historical place, state, personality and culture), evaluation of the student's achievements, the construction of the lesson and the organization of the use of innovative scientific methods in teaching history have been shown.

**Redaksiyaya daxil olub: 17.05.2016**